

# Dağ çiçəkləri, Xarıbülbül, körpə gülüşü...

**Sıldırım qayaların üzərində, zirvəsi buludlardan su içən, əzəməti ilə göylərə baş çəkən dağların ətəyində, təbiətin heyrətamiz gözəlliyi qoynunda qədim tariximizin yadigarı Şuşa şəhəri ikinci həyatını yaşayır. Şuşanın təbiəti, əsrarəngiz mənzərəsi, möhtəşəmliyi insanları heyran edir, bu yerlərin gözəlliyinə rəng qatan dağ çiçəkləri, Xarıbülbül, körpə gülüşü, Böyük Qayıdışın sevinci, şəhərin tarixi və modern görkəmi yeni bir həyatdan, sonsuz arzulardan, xoş duyğulardan xəbər verir.**

Xarıbülbül təbiətin möcüzəsidir. Bu gül Vətən yolunda, torpaq uğrunda ömürləri yarıda qırılan igidlərin nakam talelərini özündə yaşadan qələbənin rəmzinə çevrilib. Xarıbülbülün gözəlliyindən doymaq olmur, sehrli bir görkəmi var, elə bil bülbül çiçəyin ləçəyində donub qalıb, ilahi bir eşq əfsanəsi pıçıldayır.

**(davamı 5-ci səhifədə)**

# Dağ çiçəkləri, Xarıbülbül, körpə gülüşü...

(əvvəli 1-ci səhifədə)

Xarıbülbül xalqımızın mübarizliyinin, azadlığının, qurtuluşunun, qələbəsinin, zəfərinin, sevincinin, mədəniyyətinin, sülhün və sevginin simvoluna çevrilib. Ana təbiət indi Şuşanı dağ çiçəklərinə bələyib, Cıdır düzündə, Topxana meşəsində kəklikotunun ətri adamı bihuş edir. Bu qədim şəhərə gələnlərin sayı-hesabı yoxdur, sal qayaların üstündə şüşə kimi parıldayan şəhərdə işğalın ağır izləri aradan qaldırılır, Şuşaya köç karvanları davam edir. Böyük Qayıdışın ilk karvanı ilə şəhid ailələri, qazilər və şəhərdə tikinti, bərpa-quruculuq işlərində çalışan 20 ailə Şuşaya köçürülüb və onların hər birinə ailə tərkibinə uyğun mənzil təqdim edilib. Mənzillər 2, 3, 4, 5 otaqlıdır. Artıq Şuşa şəhərinə köçürülənlərin ümumi sayı 570 nəfərə - 147 ailəyə çatıb. Şəhərin havası, suyu, təbiəti bənzərsizdir, adam burada başqa bir ovqata köklənir, sanki duyğuların, ruhun titrəyişi baş verir, ucalıq, yüksəklik insana xoş anlar bəxş edir. Bu qədim şəhər tarixinin yeni bir mərhələsinə qədəm qoyub. Mədəniyyət paytaxtımızda tikinti-quruculuq Prezident İlham Əliyevin tapşırığına və tövsiyəsinə uyğun olaraq şəhərin tarixi memarlıq xüsusiyyətlərinə uyğun aparılır. Dövlətimizin başçısı bildirib ki, Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və şəhərin bərpası, dirçəlməsi hamımızın işidir və əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz. Şuşanın çətin günləri artıq geridə qalıb, düşmənin dağıtdığı tarixi abidələr yenidən bərpa olunur, burada iri infrastruktur lahiyələr həyata keçirilir. Şuşa qonaqlarını qarşılayır, şəhər addım-addım yenidən tikilir və bərpa edilir. Burada memarlıq abidələrinin özünəməxsusluğu, tikiliş üslubu, eyni zamanda onların üzərində olan daş kitabələr bu şəhərin qədim Azərbaycan şəhəri olmasını özündə ehtiva edir.

Şuşa dörd bir tərəfdən dağlarla əhatə olunub. Bu ərazidə ən yüksək zirvə 2725 metr hündürlüyündə olan Qarabağ dağ silsiləsinə aid Böyük Kirs dağıdır. Keçəldağ aşırımı da Şuşa rayonunun inzibati ərazisinə daxildir. Burada müxtəlif növ bitki və ağaclar, "Turşsu" və "Şırlan" kimi keyfiyyətli mineral su mənbələri var. Şuşada yanvar ayında orta temperatur mənfi 4 dərəcədən 1 dərəcəyə enir, iyulda isə müsbət 16-19 dərəcə, illik yağıntı isə 700-800 mm olur. Qarqar çayı bu yerlərdən axıb keçir. Şuşanın şimal-şərqində Qarabağ dağ silsiləsinin yamacında yerləşən Çaxmaq meşəsi də bu diyarın nadir gözəlliyi hesab olunur. Kirs, Şırlan, Armudlu, Əylis, Çınqıllı, Quşçular, Malıbəyli meşələri, Zarıslı və Xəlifəli çayları boyu uzanıb gedən, dağların ətəklərinə qədər geniş bir sahəni əhatə edən ormanlar gözəllik mənbəyi, əvəzsiz sərvətdir. Dəniz səviyyəsindən 1500-1600 metr hündürlükdə yerləşən və hər tərəfdən sıldırım qayalarla əhatə olunan Şuşa şimalda Xankəndi şəhəri, şərqdə və cənub-şərqdə Xocavənd, qərbdə və cənub-qərbdə Laçın rayonları ilə həmsərhəddir. Kirs dağından Şuşaya nəzər saldıqda cənub-şərqdən şəhəri sıldırım qayalı dərə əhatə edir, bu da Şuşanın tarixən strateji əhəmiyyətli bir qala-şəhər olduğunu göstərir.








Müzəffər Azərbaycan Ordusu Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il noyabrın 8-də misilsiz bir qələbəyə, tarixi bir Zəfərə nail oldu. Ana təbiətin incisi, tariximizin bir parçası Şuşa şəhəri işğalçılardan azad edildi. Qəhrəman oğullarımızın dağı, daşı, sıldırım qayaları, ucu-bucağı görünməyən meşələri qət edərək qalaya daxil olması, yüngül döyüş silahları, bəzi yerlərdə isə əlbəyaxa döyüşlərlə erməni faşizmini məğlub etməsi kafir düşmən və onun havadarları üçün gözlənilməz zərbə oldu. Şuşa torpaqlarımızın işğalçılardan azad edilməsində əldə olunan Qələbənin zirvəsinə çevrildi. Bu tarixi qələbə xalqımızın şərəfi, qüruru, mənəviyyatı, haqq səsi oldu. Düz 32 il sonra 2024-cü il 8 may tarixində Şuşa ilk sakinlərini qarşıladı. Əlbəttə, bu rəqəm təsadüfi seçilməmişdi, 1992-ci il 8 may tarixi Şuşanın işğal günü olmuşdu, qalib Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik şücaəti, ordumuzun qəhrəmanlığı sayəsində 8 noyabr Şuşanın azadlıq günü, düşmən ordusunun tar-mar edilməsi, 2024-cü il 8 may tarixi isə düşmənin mənəvi-psixoloji cəzası günü oldu.



Hərb tarixində bütün qalib dövlətlərin bu cür rəmzi məqamlara xüsusi önəm verdiyini görmək olar. Düşmənə eyni simvollar, eyni rəqəmlər və eyni üsullarla cavab verilməlidir ki, psixoloji və öldürücü zərbə alsın. Prezident İlham Əliyev hərb tarixinin qalib Azərbaycan səhifəsində bu rituallardan istifadə etdi. Bu barədə amerikalı antropoloq, sosioloq və kulturoloq Girts Klifford müharibələr zamanı simvolların, o cümlədən rəqəmlərin xüsusi önəm kəsb etdiyini, konseptual özünütəsdiq forması olduğunu bildirib. Simvollar, rituallar üzərindəki işi ilə məşhur olan ingilis antropoloqu Viktor Vitter Terner isə "Simvol və mərasim" əsərində simvolların etnoslar, xalqlar üçün xüsusi önəm daşıdığını bildirib. Başqa sözlə desək, son 30 ildə Azərbaycanla Ermənistan arasında təkcə müharibə yox, həm də simvollar, rəqəmlər və onların anlamları ilə bağlı ideoloji savaş gedib. 44 günlük müharibə dünya erməniliyinin, ermənipərəst qüvvələrin, hay lobbisinin cızdığı bütün planları, xəbis niyyətləri, "status-kvo"ları, qondarma "qələbə günləri"ni alt-üst etdi. Nəhayət, bu il mayın 8-də Şuşaya Böyük Qayıdışın başlanması işğalçı hayların "miatsum" və "böyük Ermənistan" ideologiyasının tabutuna vurulan sonuncu mismar oldu.

Şuşaya qayıdışı hüdudsuz səadət və xoşbəxtlik adlandıran qələm dostum Kərim Kərimli Şuşada yeni doğulan körpənin şəklini paylaşıb. Doğrudan da, qeyd olunmalı məqamdır, qəhrəman oğullarımızın fəda olduqları, igidlik göstərdikləri Şuşada ilk körpənin dünyaya göz açması Zəfərin intibahı, fəlsəfəsi və davamıdır. Kərim müəllim yazır ki, məşhur Azərbaycan mahnılarından birində belə misra var: "Şad xəbərlər gəzdirən dil nə gözəldir!". Kaş həmişə şad xəbərlər söyləyə biləydik! Sizə Azad Şuşada doğulan ilk sakini təqdim etmək istəyirəm, Zeynallı (ov) Süleyman Toğrul oğlu! O, 24 iyun 2024-cü ildə azad Şuşa şəhərində doğulub! Azadlıqdan sonra doğulan şuşalının azad Şuşada dünyaya gəlməsi yeni və şərəfli bir həyatın müjdəsidir, bu cür xoşbəxt hadisələr Şuşamızda tez-tez təkrar olunsun! Dünyaya göz açan körpə Süleymanın bütün şəcərəsi Şuşa ilə bağlıdır. Məlumat üçün qeyd edək ki, Süleyman Qarabağda məşhur olan, bütün şuşalıların böyük hörmət və ehtiramla yanaşdığı Seyid Mehdi ağa və Seyid Sadıq ağa ocağının nümayəndəsidir.

Azad yurdumuza xoş gəlmisən, əziz Süleyman, gözəl və xoşbəxt çöhrəndən gülüş heç vaxt əskik olmasın!!! Dörd il bundan əvvəl xalqımızın qürurunu, şərəfini bərpa edən, uzun illər işğal altında qalan torpaqlarımızı qəsbkarlardan azad edən, düşməni döyüş meydanında diz çökdürən, şəhidlərimizin qisasını alan, yurd yerlərimizə üçrəngli bayrağımızı sancan şanlı ordumuzun, Müzəffər Ali Baş Komandan İlham Əliyevin fədakarlığı sayəsində tarixi qələbəmiz indi quruculuq meydanlarında davam etdirilir, Şuşa şəhəri dünyanın gözü qarşısında öz əzəli görkəminə qaytarılır və eyni zamanda XXI əsrin modern şəhərinə çevrilir. Şuşada hələ çox körpələr doğulacaq, torpaq və Vətən uğrunda Tanrı dərgahına ucalanların yerini onlar tutacaq, gələcəyi quracaqlar!

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2024.- 14 avqust, (№ 172).- S.1;5.